

# Vurğun poeziyasının işığında

*Gülsəm, güləcəyəm əbədiyyətlə*
*Sazım gəldi-gedər çalmayacaqdır.*

* * *

*Bizdə şer də var, sənət də vardır,*
*Şairə, sənətə hörmət də vardır.*

* * *

*Dema Səməd Vurğun gəldi-gedərdi,*
*Unutmaz bu oba, bu mahal məni.*

XX əsr Azərbaycan poeziyasının ən qüdrətli söz bahadırı, görkəmli şair və dramaturq, mütəfəkkir alim, filosof, ictimai-siyasi xadim, Azərbaycan Milli Elmlər Akademiyasının ilk akademiki, iki dəfə Dövlət Mükafatı laureatı Səməd Vurğunun doğulub boya-başa çatdığı, kamala dolduğu Qazaxda Poeziya bayramı keçirildi.

Səməd Vurğun dünyaya baharda gəlmiş, bahar eşqi ilə yazıb yaratmışdır. Onun poeziyası bahar çiçəkləri kimi ətirli və təravətlidir. Vurğun xəlqi və bəşəri şairdir. O poeziyamızın ağ saçlı qartalı, dünya şöhrətli söz ustasıdır. Onun sənəti əbədi və ölməzdir. Səməd Vurğun həmişəyaşar sənətkardır. Dünyaya bir gəlib bir gedibdir. Xalq şairi Osman Sarıvəlli Səməd Vurğun haqqında demişdir:

- Nadir istedadlar yaranır, ancaq səndən gəlməyib, nə də gəlməyəcək.

*Heç vaxt axar sular durğun olmadı,*
*Alovlu ürəklər yorğun olmadı,*
*Çoxu vurğun oldu xalqa, vətənə,*
*Amma Vurğun kimi vurğun olmadı.*

Səməd Vurğun özü çox haqlı olaraq yazmışdır:

*Bu odlar yurdunun şer bayrağı,*
*Mənim əllərimlə yüksələcəkdir!*

Eşq olsun böyük şairə! Kişi kimi öz sözünün üstə durdu. Azərbaycanın şer bayrağını zirvədən - zirvəyə yüksəltdi.

Səməd Vurğunun Poeziya bayramı ötən əsrin 80-ci illərindən ulu öndərimiz, ümummilli liderimiz, əbədiyaşar prezidentimiz Heydər Əliyevin fərmanı ilə qüvvəyə minmiş və hər il dövlət səviyyəsində qeyd edilmişdir. Ulu öndərimiz Heydər Əliyevin fərmanı ilə qüvvəyə minmiş və hər il dövlət səviyyəsində qeyd edilmişdir. Ulu öndərimiz Heydər Əliyev Səməd Vurğun şəxsiyyətinə və yaradıcılığına yüksək qiymət vermişdir. O, Səməd Vurğun haqqında çox iftixarla deyirdi: "Səməd Vurğun böyük şairdir, o, öz dövrünün şairlərinin şairidir".

Möhtərəm prezidentimiz İlham Əliyev Səməd Vurğunun 100 illiyinin dövlət səviyyəsində qeyd edilməsinə dair sərəncam imzaladı və həmin sərəncama əsasən böyük şairin yubileyi onun özünün adına layiq təntənəli şəkildə bayram edildi.

Vurğunsevərlər şairin adını daşıyan Qazax Mədəniyyət Sarayında yenidən Səməd Vurğun poeziyasının işığına toplaşdılar. Qazax Rayon İcra Hakimiyyətinin, Azərbaycan Yazıçılar Birliyi Qazax zona şöbəsinin birgə hazırladığı bu bayram tədbiri çox yüksək səviyyədə həyata keçirildi. Məclisi AYB-nin Qazax zona şöbəsinin sədri, şair Barat Vüsal aparırdı.

Qazax Rayon İcra Hakimiyyətinin Başçısı Rauf Hüseynovun çıxışı tədbir iştirakçıları tərəfindən hərarətlə qarşılandı. Akademik Budaq Budaqov böyük şairin zəngin şəxsiyyəti, coşğun və vüsətli poeziyası haqqında məhəbbətlə danışdı, öz xatirələrini söylədi. Azərbaycanın xalq şairi, millət vəkili Sabir Rüstəmxanlının, filoloq-alim Almaz Ülvinin çıxışları da maraqla qarşılandı. Şairlərdən Oqtay Rza, Qardaşxan Əziz, Zaməddin Ziyadoğlu, Zəminə Xınalı, Bilal Qoca, Qabil Qasımlı və b. Səməd Vurğuna həsr etdikləri şerlərini oxudular.

Qazax rayon Aşıqlar Birliyinin sədri Camoy Qurbanov, müğənnilərdən Oqtay Mehdiyev, Vasif Tağıyev şairin sözlərinə bəstələnmiş mahnıları ifa etdilər. Qazax Dövlət Dram Teatrının aktyoru Hacı Hacıyev şairin "Mən tələsmirəm" şerini səsləndirdi.

Sazlı-sözlü Səməd Vurğunun Poeziya Bayramı şairin dillər əzbəri "Azərbaycan" şerinin sözlərinə yazılmış mahnının xoş sədaları ilə başa çatdı.

Tədbirin sonunda Səməd Vurğun ev-muzeyinin direktoru, Səməd Vurğun fondunun prezidenti, şairin qızı Aybəniz xanım Vəkilova tədbiri təşkil edənlərə və iştirakçılara öz minnətdarlığını bildirdi.

**K.KAZIMLI**